# Mingəçevir teatrında işləməkdən qürur duyan aktrisa

**Aytən İsmayilova:** *"Aktrisa, aktyor həmişə öyrənməlidir. Heç vaxt da özündən razı olmamalıdır".*



**Aytən Füzuli qızı İsmayılova 1989-cu il may ayının 21-də Gəncə şəhərində anadan olub. İlk ibtidai və orta təhsilini Gəncədəki 7 saylı orta məktəbdə alıb. Gəncədəki orta məktəbi əla qiymətlərlə bitirdikdən sonra Mingəçevir şəhərindəki Turizm kollecinə qəbul olub və oranı da müvəffəqiyyətlə bitirib. Gəncə Zabitlər evində mütəmadi olaraq keçirilən poeziya və qiraət festivallarında dəfələrlə layiqli yerlər tutub. Ailəlidir. Bir övladı var.**

Mən, Aytən İsmayılovanı 2015-ci ildən tanıyıram. Onda Aytən xanım teatra təzəcə işə qəbul olunmuşdur. İlk günlər işgüzarlığı ilə fərqlənməyi bacarmışdır. Öz üzərində fərdi şəkildə işləməyi çox sevir, bilmədiklərini özündən təcrübəli aktyorlardan və rejissorlardan öyrənirdi. Və bununla paralel olaraq, mütaliə etməyi də unutmurdu. 2016-cı ilin ortalarında tanınmış aktyor və rejissor, Respublikanın Xalq artisti Valeh Kərimov Mingəçevir Dövlət Dram Teatrına tamaşa hazırlamağa dəvət almışdı. Bu pyes İsi Məlikzadənin "Gəl, qohum olaq" pyesi idi. Pyesdə əsas rollardan biri olan Ədaləti mən, Minayəni isə Aytən İsmayılova oynayırdı. Tamaşa çox yaxşı alınmışdı. Aytəni də elə tamaşaçılara sevdirən bu obraz olmuşdu. Aytən İsmayılova özü dəfələrlə bu obraz üçün Respublikanın Xalq artisti Valeh Kərimova minnətdarlığını bildirir. Çünki bu rol səhnədə Aytənin ilk böyük və uğurlu bir obrazı olmuşdu. Mən özüm də bu tamaşada Aytən İsmayılovayla tərəf müqabil oldum. O gündən bu günədək onun bütün tamaşalarını izləməyə başladım. Qərara aldım ki, bu istedadlı, gənc aktrisadan müsahibə alıb, onu sevimli oxucularımızla daha yaxından tanış edim.



**-Xoş gördük Aytən xanım.**

-Xoş gördük.

**-Teatr deyəndə nə düşünürsünüz?**

-Teatr mənim üçün mədəniyyət, əxlaq, təhsil deməkdir. Teatr rəngarəngликdir. O mənada təhsildir ki, təhsil müəssisəsindən fərqli olaraq, burada mütləq məcbur da olsa, oxumalısan. Çünki sənin ən başlıca işin oxumaqdır. Oxumaq həmişə nitq mədəniyyətini də inkişaf etdirir. Zəkanı, yaddaşı möhkəmləndirir.

**-Böyük səhnədə ilk rolunuz haqda nə deyərdiniz?**

-Mən Gəncə Dövlət Dram Teatrında aparıcılıq studiyasına getmişəm. Bir çox tədbirlərdə aparıcılıq etmişəm. Orada hər deyəndə sənə rol vermirlər. Burada isə siz əvvəldə yazdığınız kimi Xalq artisti Valeh Kərimov mənə etimad göstərib. İsi Məlikzadənin "Gəl, qohum olaq" pyesində Minayə obrazını tapşırdı. Demək olar ki, baş rol idi. Bu obraz haqqında danışmaq istəmirəm. Çünki bu haqda siz onsuz çox əvvəllər dövrü mətbuatda yazmışdınız. Mən ancaq bu ilk böyük iş və etimad üçün Respublikanın Xalq artisti Valeh Kərimova minnətdaram. Onun bu işi davamlı oldu. Sonra bütün kollektivimizin çox sevdiyi mərhum Xalq artisti Zülfüqar Abbasovun quruluş verdiyi "Güc və ağıl" nağıl tamaşasında Gülyanağı oynamışam. Bir sözlə desək, rejissorlar çox sağ olsunlar, mənə etimad göstərdilər.

**-Hələ öyrənmək istədiyiniz nə isə varmı?**

-Əlbəttə, səhnənin öyrənməli çox sirləri var. Hər şeyi öyrənmək və çalışmaq lazımdır. Aktrisa, aktyor həmişə öyrənməlidir. Heç vaxt da özündən razı olmamalıdır.

**-Bədii ədəbiyyata münasibətiniz?**

-Bədii ədəbiyyatı və poeziyanı çox sevirəm. Çünki işimin də elə bir qolu məhz budur.

**-Deyirlər ki, bütün teatrlarda aktyorlar arasında "intriqa" deyilən bir deyim var. Bu deyimə münasibətiniz necədir?**

-Vallah mən belə bir şeylə rastlaşmamışam. Görünür, bu əksər hallarda bekarçılıqdan da baş verə bilər. Mən həmişə dedi-qodudan kənar olmağa çalışıram. Tamaşam, məşqim yoxdursa, günümü ailəmə, övladımın tərbiyəsinə həsr etməyi daha vacib hesab edirəm.

**-Çox sürətlə inkişafda olan bu dövrümüzdə - internet-komputer əsrində teatrların fəaliyyəti və ona marağı necə görürsünüz?**

-Mən belə düşünürəm ki, hər bir sahənin özünün bir maraq dairəsi var. Teatr öz maraq dairəsini yarandığı gündən yığa bilib və yığmaqdadır. Axı, bu sənət canlı sənətdir. Qaldı ki, dövrümüzün çox sürətli inkişafında bunun da teatrlarımıza çox müsbət mənada xeyri var. Teatrların birə-on məsuliyyəti artır. Belə ki, ədəbiyyatımız çox zəngindir, üstəgəl dünya ədəbiyyatında da maraqlı əsərlər çoxdur. Repertuara daha ciddi diqqət etmək lazımdır və həmin əsərlərdən seçim etmək olar. Bu çox vacibdir. Bir sözlə desək, teatrı heç bir internet-komputer və sosial şəbəkə əvəzləyə bilməz.

**-Hansı rejissor və tərəf müqaviliyilə işləmək sizə daha xoşdur?**

-Vallah mənim üçün bütün rejissor və tərəf müqavillərim doğmadır. Əgər bir kəs ki, səninlə birgə işləyən rejissoru və ya tərəf müqavili bəyənmirsə, demək onun üçün çatışmayan nə isə bir narahatçılıq var.

**-Siz ailəlikcə teatralsınız deyilmi?**

-(gülür) Deyəsən, elədir. Bunun nəyi pisdir ki? Həyat yoldaşım Elşad, qaynatam Elşən ata, hər ikisi işıq rəssamlarıdır. Birgə işə gəlirik, birgə işdən gedirik. Bir sözlə, bütövlükdə, günümüz bir yerdə keçir. Çox mehriban ailəmiz var. Bir də mən teatrı həm də xoşbəxtlik məbədi sayıram. Çünki ailə səadətini, ailə xoşbəxtliyini burada tapmışam.

**-Sizin bu sahəyə marağınız özünüzün dediyinizə görə lap uşaqlıq illərindən başlayıb. Bəs necə oldu ki, Mədəniyyət və İncəsənət Universitetini yox, Turizm kollecini seçdiniz. Bunlar ki, çox fərqli ixtisaslardır.**

-Çox düz deyirsiniz. Düzünü desəm, bu məcburən oldu. Oxumaq xatirinə oxumaq oldu. Mən oxumağa, təhsil almağa çox meyilli bir adamam. Orta məktəbi bitirib, sənədlərimi Mədəniyyət və İncəsənət Universitetinə vermişdim. Həmin ili ödənişli fakultəyə qəbul oldum. Ancaq o vaxtlar atam xəstə idi. Anam da ki, onun müalicəsi ilə məşğul idi. Bir sözlə, maddi imkanımız çox zəif idi. Odur ki, universitetdə təhsil almaqdan imtina etdim. Həm də atam cavan ikən dünyasını dəyişdi. Qəbul balım Mingəçevir Turizm kollecinə, ödənişsiz təhsilə düşürdü. Beləcə qəbul oldum. Tələbə vaxtı kollecdə dram dərnəyinə rəhbərlik etdim. Ən yaxşısı da bu idi ki, o dövrlərdə bizim kollec teatrla əməkdaşlıq edirdi. Ən azından həftədə bir dəfə kollektiv şəkildə gəlib tamaşala baxırdıq. Bax, beləcə teatra çox bağlandım. İndi isə ailəliyəm, oxumaq düşünürəm ki, bir az çətin olar. Amma qiyabi şöbə olsa, hələ ki, həvəsim var, oxuyardım.

**-Siz hələ çox gəncsiniz səhnə sizi yormur ki?**

-Əsla yox. İnanıram ki, günü-gündən həvəsim artır. Elə gözəl, mehriban kollektivimiz var ki, bunlarla işləməkdən doymuram. Rəhbərliyimiz də çox tələbkar və səmimidir. Direktorumuz hələ heç bir il deyildir ki, təyin olunub, kollektiv arasında böyük hörmət qazanıb. Bəli, Respublikanın Əməkdar artisti İntiqam Soltan işçilər arasında heç kimə fərq qoymur, hamıya qarşı münasibəti və səmimiyyəti eynidir. Baş rejissorumuz Vüsal Mehrəliyev isə tamam başqa adamdır. Çox istedadlı və qəlbi təmiz bir insandır. Bütün truppanın kədəri onun kədəri, sevinci onun sevincidir. İstedadına da ki söz ola bilməz. İntiqam müəllimin sözü olmasın. Qurduğu tamaşalara heyran olursan, baxdıqca baxmaq istəyirsən. İndi Vüsal Mehrəliyev Əhməd Orucoğlunun "Açarlarını itirənlər" adlı bir pyesini hazırlayır. Cəmisi iki personaj var: birini mən, birini isə tanınmış aktyor Natiq Fərzəliyev oynayacaq. Ümidvaram ki, bu tamaşa da Vüsal Mehrəliyevin quruluşunda çox baxımlı bir tamaşa olacaq. İndi siz özünüz deyin, belə bir kollektivlə işləməkdən doymaq olarmı? Xahiş edirəm, mənim səmimiyyətimə inanın. Bu kollektiv ilə işləməkdən qürur duyuram.

**-Övladınızı gələcəkdə aktrisa görmək istəyərsinizmi?**

-Xeyr. Düşünəcəksiniz, bayaqdan bu sənət haqqında odlu-alovlu danışan Aytən övladını bu sənətdə niyə görmək istəmir? Bu, mənim bir alın yazım idi. Bu mənim bir taleyim idi. Çox çətin bir sənətdir. Heç bir valideyn öz övladının çətinliyə düşməsini istəməz. Bir də ki hələ o vaxta çox var. Allah qoysa, özü böyüyüb seçim edər. Amma inanmıram ki, bu sahəni seçəcək.

**-Teatr bir məbəddir. Bu məbədə xidmət edənlər həmişə qayğı ilə yanaşmalı və son dərəcədə ədəb-ərkanlı olmalı. Bu fikrə münasibətiniz necədir?**

-Bəli. Teatr bir məbəddir. Bu ifadəni bütün teatr adamları bilir. Qayğı və ədəb-ərkanla yanaşırlar. Birinci növbədə, bura sənin iş yerin və qazanc mənbəyindir. İkinci, teatr kimi istənilən bir iş yerinə hörmətlə yanaşmalı, şərəflə işləməlisən. Qaldı ki, ədəb-ərkana. Hər bir insanın özünün ümumi bir mədəniyyəti, bir davranışı olmalıdır. Başqasının işinə, davranışına müdaxilə etməyi sevmirəm.

**-Sonda nə demək istərsiniz?**

-Müsahibə üçün sizə və bütün redaksiya heyətinə çox minnətdaram. Çox sağ olun!

Bütün Azərbaycan teatrlarına böyük yaradıcılıq uğurları arzulayıram. Ən böyük arzum isə odur ki, Azərbaycan teatrlarının səsi dünyanın çoxlu ölkələrindən gəlsin.



**Qabil İBRAHİMLİ,**
**aktyor-jurnalist**

Azad Azərbaycan.- 2023- cü il.- 8 iyun.- S. 5.